## HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

***Nailə Məmmədəli qızı Vəlixanlı 25 dekabr 1940-cı ildə Bakı şəhərində Azərbaycanın tanınmış mədəniyyət xadimi, xalq artisti Məmmədəli Vəlixanlının ailəsində anadan olmuşdur.***

| | |
|---|---|
| **1948-1958** | Bakı şəhəri 132 saylı orta məktəbdə oxumuşdur. |
| **1958** | Azərbaycan Dövlət Universitetinin (BDU) şərqşünaslıq fakültəsinin ərəb şöbəsinə daxil olmuşdur. |
| **1963** | Ali təhsilini fərqlənmə diplomu ilə başa vurub təyinatla Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunun Ərəb ölkələri tarixi şöbəsində baş laborant vəzifəsində əmək fəaliyyətinə başlamışdır. |
| **1964-1967** | Tarix elmlər doktoru Ziya Bünyadovun rəhbərliyi ilə "IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında" mövzusunda namizədlik dissertasiyası üzərində işləmişdir. |
| **1966** | Namizədlik dissertasiyası müdafiəyə buraxılmışdır. |
| **1967** | Namizədlik dissertasiyasını vaxtından əvvəl başa çatdırdığı üçün Şərqşünaslıq İnstitutunun Orta əsrlər tarixi şöbəsinə kiçik elmi işçi vəzifəsinə qəbul edilmişdir;<br><br>ADU-nun Elmi Əsərlərində ilk elmi məqaləsi çıxmışdır. |
| **1968** | Azərbaycan EA Tarix İnstitutunun Müdafiə Şurasında "IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir;<br><br>Tarix elmləri namizədi alimlik dərəcəsi SSRİ AAK tərəfindən təsdiq edilmişdir. |
| **1970** | "Rəşadətli əməyə görə" medalına layıq görülüb |
| **1970-2005** | Pedaqoji fəaliyyətlə məşğul olmuş, Azərbaycan (Bakı) Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, Xəzər, Ziya, |

| | |
|---|---|
| | Azərbaycan Universitetlərində "Ərəb ölkələri tarixi", "İslam tarixi", "Ümumi tarix", "Azərbaycan tarixi", "Asiya və Afrika ölkələri tarixi", "Dünya dinləri", "Azərbaycan tarixinin mənbəşünaslığı və tarixşünaslığı" və digər fənləri, eləcə də ixtisas üzrə kurs və seminarı tədris etmişdir. |
| **1974** | "IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında" kitabı işıq üzü görmüşdür. |
| **1976** | Şərqşünaslıq İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. |
| **1976-1987** | Azərbaycan Sovet Ensiklopediyasının sifarişi ilə orta əsrlər Azərbaycan və Xilafət tarixinə dair yüzdən artıq məqalə yazmışdır. |
| | |
| **1981-ci ildən** | "AMEA Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası)" jurnalında məsul katib, baş redaktor kimi fəaliyyət göstərmiş, yüksək səviyyəli məqalələrin hazırlanmasında yaxından iştirak etmişdir. |
| **1986** | "İbn Xordadbeh. Yollar və məmləkətlər" kitabı çap olunmuşdur. |
| **1989** | Şərqşünalıq İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışmışdır. |
| **1992** | Çoxcildlik Azərbaycan tarixinin 2-ci cildi üzərində apardığı işlə əlaqədar EA Tarix İnstitutunun Orta əsrlər Azəırbaycan tarixi şöbəsinin aparıcı elmi işçisi vəzifəsinə keçmişdir;<br><br>Ankarada keçirilən "Uluqbəy və çevrəsi" uluslararası simpoziumunda "Uluqbəyin çağdaşı Bədrəddin əl-Ayni və onun Azərbaycan tarixinin tarixşünaslığında yeri" məruzəsi ilə çıxış etmişdir. |
| **1993** | "Ərəb xilafəti və Azərbaycan" kitabı işıq üzü görüb. |
| **1994** | Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün elmi işlərinin məcmusuna görə "Ərəb xilafəti və Azərbaycan (İbn Xordadbehin və ərəb coğrafi ədəbiyyatının digər nümayəndə- |

| | |
|---|---|
| | lərinin əsərləri üzrə)" mövzusunda doktorluq dissertasiyasının elmi məruzə şəklində müdafiə etmişdir. |
| **1996-2001-ci illər** | Azərbaycan Universitetində professor vəzifəsində çalışmışdır. |
| **1998** | AMEA Azərbaycan Tarixi Muzeyinin direktoru təyin olub. |
| **2001** | "Naxçıvan ensiklopediyası" Elmi-Redaksiya Şurasının üzvü seçilmişdir;<br><br>AMEA-nın müxbir üzvü seçilmişdir;<br><br>YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının sifarişi ilə "Azərbaycan Tarixi Muzeyi" multimedia CD-nin layihəsinin rəhbəri olmuş, mətnini tərtib etmişdir;<br><br>Azərbaycan tarix elminin inkişafındakı xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar Azərbaycan EA-nın Fəxri Fərmanı ilə təltif edilmişdir. |
| **2005** | "Naxçıvan-ərəblərdən monqollaradək (VII-XII əsrlər)" kitabı çapdan çıxmışdır. |
| **2006-cı il 7 noyabr** | Azərbaycan Respublikası Prezidenti yanında Heraldika şurasının üzvü seçilmişdir. |
| **2007-ci il aprel ayı** | Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü və vitse prezidenti seçilmişdir. |
| **2009** | AMEA-nın nəzdində yaradılmış Adlar və Soyadlar üzrə Xüsusi Komissiyasının üzvü seçilmişdir;<br><br>"Beynəlxalq muğam simpoziumu"nun təşkilinə həmsədrlik etmişdir. |
| **2010** | "Şöhrət" ordeni almışdır. |
| **2010-cu il 8 fevral** | Azərbaycan Respublikası Prezsidentinin fərmanı ilə Azərbaycan Respublikasının elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları komissiyasının üzvü seçilmişdir. |

| | |
|---|---|
| **2010-cu il 19 fevral** | Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının üzvü seçilmişdir. |
| **2011** | Ailə, Qadın, Uşaq problemləri üzrə Dövlət Komitəsi tərəfindən “Lider Qadın” mükafatına layiq görülmüşdür;<br><br>“Muzeylərin müasir durumu və inkişaf perspektivləri” beynəlxalq elmi konfransının təşkilatçısı və sədri olmuşdur. |
| **2015** | Əməkdar elmi xadimi adına layiq görülüb;<br><br>"Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda" adlı kitabı çapdan çıxıb. Naxçıvanın tarixinə həsr olunmuş yeni nəşrdə muxtar respublikanın 6 əsrdən çox müddətdə tarixi araşdırılır. |
| **2017** | “Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər” kitabı çapdan çıxıb. |
| **2018-ci il 18 may** | İCOM Azərbaycan Milli Komitəsi tərəfindən Akademik Nailə Vəlixanlı komitənin fəaliyyətində göstərdiyi xidmətlərə görə "Fəxri üzv" nominasiyası üzrə diplomla təltif olunub. |
| **2018-ci il 25 noyabr** | İpəkyolu Beynəlxalq Muzeylər Alyansının (İBMA) vitse-prezidenti seçilmişdir;<br><br>Azərbaycanın və Yaxın Şərqin erkən orta əsrlər tarixinin mənbəşünaslıq, regionun sosial-iqtisadi, siyasi-mədəni problemlərinin və tarixi coğrafiyasının tədqiqi, təhlili və təbliğinə görə Akademik Nailə Vəlixanlı AMEA-nın Abbasqulu ağa Bakıxanov adına mükafatına layiq görülüb. |
| **2019** | 065 №-li əmr ilə Azərbaycan Respublikası DTX-nin sədri, general-polkovnik Mədət Quliyevin imzası ilə verilən vəsiqədə akademik Nailə Vəlixanlı "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib;<br><br>MDB-ə Üzv Dövlətlərin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun |

| | |
|---|---|
| | Mükafatlandırma Şurası tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı 2019-cu il üçün "Birliyin Ulduzları" Dövlətlərarası Mükafatının laureatı adına layiq görülüb. MDB ölkələri tərəfindən Nailə xanımın yaradıcı əməyinə və humanitar sahədəki uğurlarına verilən yüksək qiymətləndirmədən xəbər verir. "Birliyin Ulduzları" Dövlətlərarası Mükafatı diplomdan, Mükafat laureatının fəxri nişanından və ona verilən sertifikatdan ibarətdir. |
| **2019-cu il 27 may** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 27 may tarixli 1205 nömrəli Sərəncamına əsasən AMEA Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı ilə təltif olunub. Yubiley medalı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzası ilə verilən yubiley medalının vəsiqəsi (№ I-828) AMEA Rəyasət Heyətinin 17.07.2019-cu il tarixli iclasında akademik Nailə Vəlixanlıya təqdim edilib. |
| **2019-cu il 23 sentyabr** | Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilib və beynəlxalq "Qızıl Ulduz" medalı ilə təltif edilib. |
| **2019-cu il 17 oktyabr** | ICOM Azərbaycan Milli Komitəsinin Rəyasət Heyətinə üzv seçilib. |
| **2019-cu il 6 dekabr** | Azərbaycan Respublikası Təhsil nazirinin 6 dekabr 2019-cu il tarixli K-1825 nömrəli əmri ilə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib. |
| **2020-ci il 30 dekabr** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında elmin inkişafında böyük xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilib. |
| **2021-ci il 5 yanvar** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi |

| | |
|---|---|
| | haqqında 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə əlaqədar dahi şair və mütəfəkkir Nizami Gəncəvi irsinin tədqiqi və təbliği sahəsində elmi fəaliyyətinə görə Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru, akademik Nailə Vəlixanlı Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif olunub. |
| **2021-ci il 8 yanvar** | Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru vəzifəsinə seçilib. |
| **2024-cü il 2 fevral** | Azərbaycan Prezidenti İlham Əliyevin 2 fevral 2024-cü il tarixli Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə təltif edilmişdir. |